# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

1 mart 2018-ci il
Cümə axşamı

№ 8(3373)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNİN ANIM MƏRASİMİNDƏ İŞTİRAK EDİB

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 26 il keçir.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva, Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən, Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.







İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürək ağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğana ad günü münasibətilə təbriklərini çatdırıb, qardaş Türkiyə xalqının firavanlığı naminə Prezidentlik fəaliyyətində ona uğurlar və möhkəm cansağlığı arzulayıb.

Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür edib.

Prezident Rəcəb Tayyib Ərdoğan Xocalı soyqırımı nəticəsində günahsız insanların ermənilər tərəfindən qətlə yetirilməsini bir daha pisləyib, bu faciə ilə bağlı Azərbaycan Prezidentinə və xalqımıza başsağlığı verib.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

**Ölkə rəhbərimizin 22 fevral 2018-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Fəttah Səməd oğlu Heydərov "İstiqlal" ordeni ilə təltif edilib.**

**Prezident İlham Əliyev fevralın 22-də Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərova "İstiqlal" ordenini təqdim edib.**

***Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib.***

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 21-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Azərbaycan-Niderland Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı fevralın 21-də məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 21-də İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əmir Hatəminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Fevralın 21-də dövlətimizin başçısı Estoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri xanım Kersti Kalyulayda təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**İordaniya Haşimilər Krallığı ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 25-ci ildönümü münasibətilə İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyn Prezident İlham Əliyevə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı fevralın 22-də Küveyt Dövlətinin milli bayramı münasibətilə Əmir Əlahəzrət Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha və Küveyt Dövləti Nazirlər Kabinetinin Sədri Əlahəzrət Şeyx Cabir əl-Mübarək əl-Həməd əs-Sabaha təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Fevralın 23-də Azərbaycan Prezidenti İlham Əliyev "Boeing Commercial Airplanes" şirkətinin prezidenti və baş icraçı direktoru Kevin Mak Alisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 23-də Dominikan Respublikasının milli bayramı Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Danilo Medinaya təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı fevralın 25-də Amerika Yəhudi Komitəsinin prezidenti Con Şapironun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 27-də Mingəçevir şəhərində çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi və təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 27-də Mingəçevir şəhərinə səfərə gəliblər.

Dövlətimizin başçısı və xanımı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsi önünə gül dəstəsi qoyublar.

Həmin gün Azərbaycan Prezidenti 424 MVt gücündə əsaslı yenidənqurmadan sonra Mingəçevir Su Elektrik Stansiyasının, şəhərin içməli su təchizatı sisteminin istismara verilməsi mərasimlərində, elektrik paylayıcı şəbəkəsinin Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin, Mingəçevir-Bəhramtəpə avtomobil yolunun əsaslı şəkildə yenidən qurulan 26 kilometrlik Aran-Qaracı hissəsinin, Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə iki müəssisəsinin açılışlarında iştirak edib.

Ölkəmizin rəhbəri və birinci xanım Mehriban Əliyeva fevralın 27-də Mingəçevirdə "ASAN Həyat" kompleksinin açılışında iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov Mingəçevir "ASAN Həyat" kompleksi barədə dövlətimizin başçısına və xanımına ətraflı məlumat veriblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksdə yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısı mərkəzi işə salıb.

Dövlətimizin başçısına və xanımına növbəti illərdə inşası və istifadəyə verilməsi nəzərdə tutulan digər "ASAN xidmət" mərkəzlərinin layihələri də təqdim olunub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "ASAN Həyat" kompleksinə daxil olan "ASAN Peşə" ilə tanış olublar.

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Ramil Usubov fevralın 24-də Şirvan şəhərində növbəti qəbul keçirib.**

Şəhər Polis Şöbəsində baş tutan tədbirdə Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının qəbula gələn 54 sakini ilə görüşən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyib, problemlərinin qanunvericiliyə uyğun şəkildə həlli üçün aidiyyatı baş idarə, idarə və xidmət, həmçinin ərazi polis orqanlarının rəislərinə konkret tapşırıqlar verib. Daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı olan məsələlərin əksəriyyəti elə yerindəcə öz həllini tapıb, digərlərinin aidiyyəti qurumlara göndəriləcəyi diqqətə çatdırılıb.

Sakinlər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbulunun təşkilinə, icra orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ münasibətə və həssas yanaşılmasına görə dövlətimizin başçısına minnətdarlıq edib, onun ölkəmizin tərəqqisinə, iqtisadi dirçəlişinə, beynəlxalq imicinin daha da yüksəldilməsinə yönəlmiş siyasətini daim dəstəkləyəcəklərini bildiriblər.

*24 fevral 2018-ci il.*

# FACİƏ QURBANLARI YAD EDİLDİ

**Fevralın 22-də Daxili İşlər Nazirliyində Xocalıda şəhid olmuş polis əməkdaşlarının ailə üzvlərinin iştirakı ilə anım mərasimi keçirilib.**



Tədbiri giriş sözü ilə açan daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev bildirib ki, öz tarixinin müxtəlif mərhələlərində erməni millətçiləri tərəfindən soyqırıma məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 26 il əvvəl Xocalıda üzləşdi. Nazir müavini vurğulayıb ki, yalnız xalqın təkidli tələbilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin prinsipial mövqeyi sayəsində dinc əhalimizə qarşı törədilən soyqırıma obyektiv hüquqi-siyasi qiymət verilib, Milli Məclisin 24 fevral 1994-cü il tarixli qərarı ilə 26 fevral "Xocalı soyqırımı günü" elan olunub, 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" Prezident sərəncamı imzalanıb.

Xocalının müdafiəsi zamanı düşmənlə qeyri-bərabər döyüşlərdə 17 polis əməkdaşının da qəhrəmancasına həlak olduğunu xatırladan nazir müavininin təklifi ilə soyqırıma məruz qalmış xocalıların, eləcə də ərazi bütövlüyümüz və suverenliyimiz uğurunda canlarından keçən soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xocalı soyqırımının insanlığa qarşı törədilmiş ən dəhşətli faciələrlə bir sırada durduğunu deyən İsmət Əliyev tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, işğaldan sonra bütün maddi-mədəniyyət abidələrinin vəhşicəsinə dağıdılması bəşər sivilizasiyasına, insan haqlarına qarşı törədilmiş qatı cinayətdir. Qeyd olunub ki, illər keçməsinə baxmayaraq, min bir işgəncə ilə qətlə yetirilən soydaşlarımızın, qəhrəman oğul və qızlarımızın əziz xatirəsi anılır və dünya ictimaiyyəti bəşəri cinayətlər sırasında yer alan Xocalı faciəsini yad edərək Azərbaycan xalqı ilə həmrəy olduğunu bildirir və millətçilərin törətdikləri bədnam əməlləri pisləyir.

Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə bu faciənin bütün dünyada tanınması istiqamətində görülən işləri, Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan həqiqətlərinin dünyanın hər yerində yayılmasını, beynəlxalq aləmin məlumatlandırılmasını, torpaqlarımızın işğal faktı və Xocalı soyqırımı ilə bağlı dünyanın bir çox ölkələrində yaşayan həmvətənlərimizin həmrəyliyini diqqətə çatdıran nazir müavini vurğulayıb ki, artıq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğatının iç üzü ifşa olunub və dünya ictimai fikri Xocalı qətliamını soyqırımı kimi qəbul etməyə başlayır. O, respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubovun adından qəhrəman şəhərin müdafiəsində şəhid olmuş polis əməkdaşlarının ailə üzvlərinə bir daha başsağlığı verib, onların problemləri və qayğıları ilə maraqlanıb, qaldırılan məsələlərin tezliklə həlli istiqamətində müvafiq tədbirlərin görüləcəyini bildirib.

Şəhid ailələri adından danışan Vərziyar Əliyeva onlara göstərilən diqqət, qayğıya görə ölkə və DİN rəhbərliyinə minnətdarlığını bildirib.

Nazir müavini İsmət Əliyev bu gün Azərbaycanın bölgədə həlledici söz sahibinə çevrildiyini, iqtisadi potensialının, siyasi və hərbi qüdrətinin durmadan artdığını, ordumuzun hər an Ali Baş Komandanın əmrinə hazır olduğunu xatırladaraq ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyi barədə möhtərəm dövlət başçımızın qətiyyətli mövqeyini bir daha diqqətə çatdırıb.

***DİN-in Mətbuat Xidmətindən***

# ƏSRİN FACİƏSİ,
## QƏHRƏMANLIQ TARİXİ...

**"Ötən 26 il ərzində Xocalı dərdini unutmayan, böyükdən-kiçiyə şəhid şəhərin adını qəlbində həmişə xatırlanacaq bir nisgil kimi daşıyan xalqımız dünənlə müqayisədə bu gün daha da mətinləşib, daha da müdrikləşib. Qətliam, əslində, biz azərbaycanlıların gözünü qorxutmaqla yanaşı, milli kimliyimizi, ruhumuzu, düşüncəmizi öldürməyə yönəldilmişdi və bunu Ermənistanın rəhbərliyini təmsil edən şəxslərin özləri də etiraf edirlər. Monoetnik Ermənistanı "dənizdən-dənizə" görmək istəyənlərin bir hədəfi var: Tarixi Azərbaycan torpaqlarını işğal etmək."**








Bu fikirləri Nəqliyyatda Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Emin Şəkinski Xocalı soyqırımının ildönümünə həsr olunan tədbirdə dedi. Sonra soyqırım qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Baş İdarənin rəis müavini, polis polkovniki Rövşən Eyyubov Xocalı soyqırımının erməni millətçilərinin zaman-zaman Azərbaycanda törətdikləri qanlı cinayətlərin ən dəhşətlisi olduğunu bildirdi. O, erməni millətçisi Zori Balayanın "Ruhumuzun canlanması" kitabında Xocalı soyqırımına haqq qazandırdığını, orada Azərbaycan türklərinə qarşı soyqırımın həyata keçirildiyini etiraf etdiyini, Devid Xerdiyanın "Xaç uğrunda" kitabında erməni vəhşiliklərini yazdığını iştirakçıların diqqətinə çatdırdı və qeyd etdi ki, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində səylər daha da artırılmalı, qətliamı törədənlər ədalət məhkəməsi qarşısına çıxarılmalıdırlar.

Baş idarə rəisinin müavini, polis polkovniki Məhəmməd Məhəmmədov bildirdi ki, məlum hadisələr dövründə Ermənistandan, Xankəndindən erməni separatçıları tərəfindən didərgin salınmış xeyli azərbaycanlı və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türkləri də orada məskunlaşmışdılar. Onlar məhz milli və dini məsubiyyətinə görə, qədim yurd yerimizin tarixinə və taleyinə sahib çıxmış vətənpərvər insanlar olduqları üçün öldürüldülər. Amma şəhidlər və şəhid şəhər tarixin qan yaddaşında əbədi yaşayacaq.

Xocalının müdafiəsi zamanı düşmənlə qeyri-bərabər döyüşlərdə 17 polis əməkdaşının da qəhrəmancasına həlak olduğunu deyən şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis polkovniki Məhəmməd İsmayılov yalnız xalqın təkidli tələbilə hakimiyyətə qayıdan ulu öndərin prinsipial mövqeyi sayəsində soyqırıma obyektiv hüquqi-siyasi qiymət verildiyini bildirdi.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırığı ilə bu soyqırımın bütün dünyada tanınması istiqamətində görülən işləri, xaricdə yaşayan həmvətənlərimizin səylərinin birləşdirilməsinə yönələn tədbirləri xatırladan polis polkovniki dedi ki, getdikcə daha çox dövlət Xocalıda törədilən vəhşiliyi soyqrım kimi tanıyır.

Xocalı qırğınlarının şahidi, soyqırımı zamanı doğmalarını itirən polis mayoru Asif Usubov təəssüf hissi, ürək ağrısı ilə etiraf etdi ki, Xocalını xocalılılardan və bir də Azərbaycan Polisindən başqa kimsə müdafiə etmirdi.

Şəhid polis əməkdaşı Əbülfət Əliyevin oğlu, polis baş leytenantı Taryel Əliyev, polis veteranı Arif Qarayev və digər çıxış edənlər unutqanlığın nə qədər böyük bəlalara yol açdığını gənclərə aşılamaqla, onların haqsızlığa, zülmə, əsarətə nifrət ruhunda böyüməsinin vacibliyini bildirdilər.

Tədbirə yekun vuran polis general-mayoru E.Şəkinski Xocalının, soyqırıma məruz qalan soydaşlarımızın qisasının alınacağı günün çox da uzaqda olmadığına əminliyini ifadə etdi.

***H.Təmirov,***
***polis mayoru***

# BU, ƏSL SOYQIRIM, BƏŞƏRİ CİNAYƏTDİR

**Fevralın 23-də Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayında Xocalı soyqırımı qurbanlarının anım mərasimi keçirilib. Tədbirin əvvəlində faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Alay komandiri, polis general-mayoru Zaur Abdullayev mərasimdə çıxış edərək Azərbaycan xalqının qan yaddaşı olan Xocalı faciəsi, erməni millətçilərinin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşiliklər və soyqırımla bağlı həqiqətlərin dünya ictimaiyyətinin nəzərinə çatdırılması üçün görülməsi vacib olan işlər barədə danışıb. Bildirilib ki, bu faciənin dünya ictimaiyyətinə çatdırılması üçün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin böyük əməyi olub. Məhz onun təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisində ilk dəfə bu məsələyə hüquqi-siyasi qiymət verilib, faciənin dünya ictimaiyyətinə çatdırılması məqsədilə mühüm işlər görülüb.

Sonra çıxış edən Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitunun direktor müavini Cəbi Bəhramov qeyd edib ki, Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalıb, öz tarixi torpaqlarından didərgin salınıb. Hələ ötən əsrin əvvəllərində "Dənizdən - dənizə böyük Ermənistan" yaratmaq xülyasında olanlar 1905-1906-cı illərdə Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və digər bölgələrimizdə dinc azərbaycanlılara qarşı qırğınlar törədib, əhalini amansızlıqla qətlə yetirib, şəhər və kəndləri viran qoyublar. Bu siyasətin davamı olaraq, erməni silahlı qüvvələri tərəfindən 1917-ci ilin əvvəllərindən 1918-ci ilin mart ayına qədər olan dövrdə İrəvan quberniyasında 197, Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd dağıdılıb, digər bölgələrdə isə 60 yaşayış məskəni məhv edilib.



Erməni-bolşevik birləşmələri təkcə 1918-ci il martın 31-də və aprelin ilk günlərində Bakıda 12 min dinc insan qətlə yetiriblər. Həmin ilin ilk beş ayı ərzində Quba qəzasında 16 mindən çox insan xüsusi qəddarlıqla qətlə yetirilib, 167 kənd dağıdılıb.

C.Bəhramov vurğulayıb ki, Cənubi Qafqazın sovetləşməsindən sonra ermənilər mərkəzdəki havadarlarının əli ilə 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-ə daxil etməyə nail olublar və sonralar Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə Muxtar Vilayət statusu verilib. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin qərarına əsasən, 1948-1953-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından, xüsusilə də İrəvan və onun ətraf rayonlarından kütləvi şəkildə deportasiya olunması nəticəsində 150 minə yaxın soydaşımız zorakılıqla Azərbaycanın aran rayonlarına köçürülüb.

Azərbaycan xalqının yetirdiyi nadir tarixi şəxsiyyət, xalqımızın ulu öndəri Heydər Əliyev ölkəmizdə siyasi rəhbərlikdə olduğu və ondan sonra SSRİ rəhbərliyində təmsil olduğu illərdə erməni ideoloqlarının bütün cəhdləri iflasa uğrayıb. 1987-ci ilin sonlarında ulu öndərimiz tutduğu yüksək vəzifələrdən istefa verdikdən sonra daşnak ideoloqları öz təcavüzkar niyyətlərini gerçəkləşdirmək üçün hərəkətə keçiblər.

Öz iyrənc məqsədlərinə çatmaq üçün onlar kütləvi terrorlara əl atıblar. Dağlıq Qarabağı ələ keçirmək üçün Xocalını əsas hədəf götürüblər. Hələ faciədən 4 ay əvvəl, yəni 1991-ci il oktyabrın sonundan şəhərə gedən bütün avtomobil yolları bağlanıb və Xocalı, faktiki olaraq, mühasirəyə alınıb. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayın hərbi texnikası və canlı qüvvəsi ilə şəhərə daxil olub. Xocalı yerlə - yeksan edilib…

C.Bayramov onu da diqqətə çatdırıb ki, Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu müstəsna xidmətlər göstərir.

***Zeyni Hüseynov,***
***polis serjantı***

# SOYQIRIMIN ÜNVANI: XOCALI

**Ay dərd, sənin adın nədir? Bircə bu suala cavab tapa bilməmişəm ötən illər ərzində.**

**Dadını, rəngini yaxşı bilirəm. Min il görməsəm belə, səni tanımaqda çətinlik çəkmərəm, ay dərdim. Sən mənim özümə oxşayırsan…**

Sevinci bölməyə nə var ki, oğulsan, dərdə simsar ol.

Bunu mənə ürəyim hər gecə pıçıldayır…

Uşaq vaxtı əzbərlədiyim tapmacaya böyüdükcə başqa bir cavab tapdım. "Əl ilə tutmaq olmaz, göz ilə görmək olmaz". Cavabı külək idi.

Yaxamı dərdə tanıdandan sonra onun əsl cavabının elə dərd olduğunu bildim. Böyüklərimiz bizə hər şeyi obrazlı təqdim ediblər, nədənsə. Bəlkə də həqiqəti desəydilər, heç böyümək istəməzdik…

Elə bir yazıya köklənmişəm ki, havasına qol qaldırıb oynasam, dəli deyəcəklər. Daha düşünməyəcəklər ki, insan sevincdən də, dərddən də havalana bilər.

Sazı, tarı kökləməyə nə var ki. Tel də, mizrab da, pərdə də əmrinə müntəzirdir.

Dərdimin adını tapmışam…

Ocaq ayının iyirmisindən, yanvarı deyirəm, bilmək istəsəniz, fevralın, Xocalı ayının 25-ə qədər olan müddət cəmi 35 gündür...

Bunun da indi fərqinə vardım. Məgər odlar arasında qalmaq bizim alın yazımızdımı?

"Yol" deyəndə tüklərim biz-biz olur. Xocalı düşür yadıma. Gözlərimin önündən güllləbarandan-ölümdən qaçıb canını qurtarmaq üçün yol axtaran insanlar gəlib-keçir. Yolu da taleyi kimi düyünə düşənlərə kömək etmək üçün yollar aramayanların vicdanı sızıldayırdımı, görəsən.

Dərdimin adı Xocalıdır…

İllər öncə belə bir fikir yazmışdım. Hər il qaysağı qopan yaranın sağalmasını bəzən insan heç istəmir. Yenə qopacaq, nə faydası var ki…

Xocalım, hər il dərdin və dərdim təzələnəndə xəcalət çəkirəm. Adının yanında belə başım aşağıdır, ulu yurdum. Dünya indi-indi insafa gəlib adını Xatınla, Sonqmi ilə birlikdə çəkir…

Gec də olsa, həqiqəti dilə gətirirlər.

İyirmi altı ildir ki, nə qanını almışıq, nə də haqqını qaytarmışıq. Amma darıxma, bu torpağın, bu yurdun Mübarizlərinin, Fəridlərinin, Əliflərinin, Çingizlərinin əli tətikdə, gözləri yoldadır.

Biz gələcəyik!!!

***T.Hafiz***

*Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq, sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır.*

***Heydər Əliyev***
***Azərbaycan xalqının ümummilli lideri***

# ŞƏHİDLƏR, QƏHRƏMANLAR ŞƏHƏRİ

Nizami RPİ-də Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş tədbirdə bu tarixi münasibəti və ittihamları xatırladan idarənin rəisi, polis polkovniki Ədalət Abbasov əlavə etdi ki, dünyada baş verən bütün müharibələr, kütləvi qırğınlar öz xarakteri, nəticələri ilə bəşəriyyətə həm maddi, həm də mənəvi zərbə vurub. Ermənistanın millətçi rejiminin Xocalıda törətdiyi qeyri-insani hərəkətlər isə bütün əxlaq, mənəviyyat normalarına ziddir. Körpələri, uşaqları, qadınları, qocaları, yaralı döyüşçüləri faşist üsulları ilə qətlə yetirmək, dinc, əliyalın insanları yalnız azərbaycanlı olduqları üçün işgəncələrə məruz qoymaq bütün sivil dəyərlərə həyasızcasına meydan oxumaqdır.






Milli Məclisin deputatı Aydın Mirzəzadə qeyd etdi ki, Azərbaycan xalqı 200 il ərzində erməni şovinistləri tərəfindən davamlı olaraq, etnik təmizləməyə, soyqırıma məruz qalmışdır. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan yüz minlərlə soydaşımız öz tarixi torpaqlarından qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr növbəti dəfə kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, Xocalı adlı bir şəhərin xəritədən silinməsi ilə tarixin qan yaddaşına yazılmışdır.

Hadisələrin canlı şahidi, "Xocalı Soyqrımı Tanıtma" İctimai Birliyinin sədri Şamil Sabiroğlu, Nizami RPİ-nin Təşkilati inspektor qrupunun baş inspektoru Rəhman İsmayılov o qanlı gecədə baş verənləri, polis əməkdaşlarının şəhəri, dinc əhalini qorumaq, düşmənə daha çox itki vermək üçün göstərdikləri qəhrəmanlıqlar barədə xatirələrini danışmışlar.

Sonra hücum zamanı erməni faşistlərinə əsir düşmüş Dürdanə Ağayeva əsirllikdə onların başına açılan müsibətlərdən danışdı.

Həmin vaxt Xocalı Telefon Qovşağında operator işləyən 20 yaşlı Dürdanə qardaşıyla birlikdə əsr düşmüşdür. Onun danışdıqlarına ürək ağrısız qulaq asmaq mümkün deyildi. Dürdanə xanım gördüklərini və yaşadıqlarını qələmə alaraq "Erməni zindanında səkkiz gün" adlı kitabını Türkiyədə çap etdirmişdir. Sonra həmin kitab Heydər Əliyev Fondunun köməkliyi ilə rus dilinə tərcümə olunmuşdur.

Anım mərasiminə yekun vuran polis polkovniki Ədalət Abbasov Azərbaycan dövlətinin Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün davamlı və ardıcıl siyasət həyata keçirdiyini qeyd etmiş, bunun nəticəsi olaraq, dünyanın onlarla parlamentinin, Xocalı qətliamının soyqırım aktı kimi tanıdığını, 6 ölkədə şəhid şəhərin xatirəsinə 9 abidə ucaldıldığını diqqətə çatdırmışdır.

# BƏŞƏRİ CİNAYƏT XOCALI SOYQIRIMI

**Binəqədi Rayon Polis İdarəsində Xocalı soyqırımının 26-cı il dönümünə həsr olunmuş tədbir foyedə bu dəhşətli faciəni əks etdirən fotoşəkillərin nümayişi ilə başladı. Faciə sonrası çəkilmiş fotolar erməni vandalizminin, qəddarlığının dünya ictimaiyyətinə çatdırılmasında əsas dəlillərdən biridir.**

Sonra tədbir RPİ-nin iclas zalında davam etdirildi. "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir."



Xosalı soyqırımının ildönümünə həsr olunmuş tədbiri Binəqədi Rayon Polis İdarənin rəisi, polis polkovniki Namiq İsmayılov ulu öndərin faciə haqqında söylədikləri bu sözlərlə açdı.

Sonra soyqrım qurbanlarının və ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olmuş həmvətənlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, dövlət himni səsləndirildi.

Anım mərasimi iştirakçılarının nəzərinə çatdırıldı ki, XX əsrin ən qanlı cinayətlərindən olan Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırım aktı kimi tanınması üçün Azərbaycan dövləti ötən illər ərzində zəruri addımlar atmışdır. Xüsusilə də ümummilli liderimizin hakimiyyətə qayıdışından sonra soyqırımına əsl hüquqi-siyasi qiymət verilmiş, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilmişdir. Xocalı hadisələrini beynəlxalq aləmdə soyqırım aktı kimi tanınması istiqamətində Prezident cənab İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasətinin, Birinci vitse-prezident Mehriban Əliyevanın beynəlxalq miqyaslı fəaliyyətinin, həmçinin 2009-cu ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyasının nəticələri barədə geniş məlumat verildi.





Tədbirdə çıxış edən əməkdar müəllim Elxan Quliyev bildirdi ki, bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan öz işğalçı fəaliyyətini həyata keçirərkən bütün vəhşi üsullardan yararlanmış, körpələr, qocalar, qadınlar qətlə yetirilmiş, onların üzərində təhqiredici hərəkətlər həyata keçirmişlər. Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı jurnalistləri dəhşətə gətirmişdir.

XX əsrin sonunda törədilmiş bu qətilam təkcə Azərbaycan xalqına deyil, insanlığa qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Anım mərasiminə yekun vuran polis polkovniki Namiq İsmayılov bu faciənin xalqımızın qan yaddaşında əbədi yaşayacağını bildirdi.

*****

Tədbirdən sonra qanvermə aksiyası keçirildi. Aksiyada iştirak edənlər əvvəlcə Hemotologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən müayinədən keçdilər.

Yığılan qan ehtiyatı yoxlanıldıqdan sonra qan xəstəliklərindən əziyyət çəkənlər üçün istifadə olunacaq.

***Çingiz Şıxverdiyev,***
***polis polkovnik-leytenantı***

# BU QAN YERDƏ QALMAYACAQ!

**Qubadlı Rayon Polis Şöbəsində də Xocalı faciəsinin 26-cı ildönümü ilə bağlı anım tədbiri keçirilib. Şöbə rəisi, polis polkovniki Bəhruz Cabbarov çıxış edərək bildirib ki, tarixən xalqımıza qarşı xəyanətkar mövqedə duran, fürsət düşən kimi öz məkrli niyyətlərini həyata keçirən erməni şovinistləri XX əsrin sonlarında – sovet imperiyasının süquta uğradığı zaman öz mənfur simalarını bir daha büruzə verdilər.**



Qeyd olunub ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni quldurları imperiya qoşunlarının Xankəndindəki alayının köməyi ilə Azərbaycanın ən qədim yaşayış məntəqələrindən sayılan Xocalını yerlə-yeksan ediblər. İnsanlığa sığmayan bu amansız soyqırımı hadisəsi, ağır cinayət aktı nəticəsində günahsız insanlar qətlə yetirilib, əliyalın, köməksiz qocalara, qadın və uşaqlara qarşı vəhşilik hərəkətləri ediblər.

Şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis mayoru Tural Namazov diqqətə çatdırıb ki, Xocalı qətliamı xalqımıza qarşı əvvəlcədən planlaşdırılmış soyqırımı siyasəti olmaqla yanaşı, həm də bütün bəşəriyyətə yönəldilmiş ağır cinayətdir. O zaman Azərbaycana rəhbərlik edənlərin məsuliyyətsizliyi və səhlənkarlığı üzündən erməni vandalizminin gerçək mahiyyəti barədə dünya ictimaiyyəti yetərincə məlumatlandırılmayıb, faciəyə siyasi-hüquqi qiymət verilməsinə səy göstərilməyib.

RPŞ-nin xidmət üzrə müavini, polis polkovnik-leytenantı İlham Rəsulov, polis veteranları və digər çıxış edənlər yalnız ümummilli liderin hakimiyyətə qayıdışından sonra Xocalıda törədilən cinayətlər barədə əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırıldığını vurğulayıblar.

Polis polkovniki B.Cabbarov tədbirin sonunda çıxış edərək bu gün ölkə Prezidentimizin rəhbərliyi ilə Azərbaycan həqiqətlərinin, o cümlədən Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərdən, "Xocalıya ədalət" kampaniyasının nəticələrindən danışıb.

***Hafiz Təmirov,***
***polis mayoru***

# O GECƏ...

**Tarixin müxtəlif dönəmlərində erməni millətçiləri tərəfindən soyqırıma məruz qalan Azərbaycan xalqı növbəti belə vəhşiliklə 1992-ci ilin qarlı qışında Xocalıda qarşılaşdı. Dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi torpaq itkisi ilə yanaşı, əsrin ən qəddar qətliamlarından birini yaşaması ölkəmizin tarixinə qara hərflərlə yazıldı.**

26 fevral 1992-ci il. Quşbaşı qar yağan sərt qış gecəsi. O gecə dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, hələ yer üzü belə müsibət, belə vəhşilik görməmişdi. Evlərə od vuruldu, torpaq qana boyandı o gecə. Yağı düşmən nə qocaya, nə xəstəyə, nə də qadına və körpəyə aman verdi. Uşaqlar validyenlərinin gözləri qarşısında qəddarlıqla qətlə yetirildilər. Aramsız güllə yağışından qaçıb ayağı yalın, başı açıq halda meşələrə, dağlara üz tutanların çoxu şaxtada dondu, qar uçqunlarına qərq oldu...

O gecə hara gedəcəyini, kimdən imdad diləyəcəyini bilməyən uşaqların meyidlər arasında çaş-baş halda vurnuxmalarını, ətrafda nə baş verdiyindən xəbərsiz körpənin gözlərini həyata əbədi yumması ananın buz kimi sinəsinə qısıldığı göz önünə gətirin…

Həmin gecə Xocalı sakinlərinin üzləşdikləri müsibətlərin hansı birini deyəsən, hansı birini yazasan?! Dil də acizdir deməyə, qələm də acizdir bu vəhşilikləri təsvir etməyə…

***Ruhiyyə Əliyeva,***
***polis leytenantı***

# YUBİLEYƏ HƏSR OLUNAN YARIŞ KEÇİRİLİB

**Azərbaycan Polisinin 100 illik yubileyi ilə əlaqədar müxtəlif tədbirlər keçirilir. Fevralın 19-dan 21-dək DİN İdman Cəmiyyətində keçirilən qol güləşi (armrestlinq) və ağırlıq daşlarının qaldırılması yarışı da bu əlamətdar yubileyə həsr olunub.**

Öncə Xocalı faciəsinin 26–cı ildönümü ilə bağlı faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova bildirib ki, Azərbaycan Respublikası bu gün öz tarixinin şərəfli, inkişaf və tərəqqi dövrünü yaşayır. Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi uzun illər ərzində bütün idman ictimaiyyətimizi ruhlandırdı, hamını problemlərin aradan qaldırılmasına, qarşıda duran mühüm vəzifələrin yerinə yetirilməsinə və beləliklə də, respublikamızın dünyanın idman mərkəzlərindən birinə çevrilməsi işinə səfərbər etmiş oldu.

Ulu öndərimizin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Möhtərəm dövlət başçımızın diqqəti idmançıları yeni qələbələrə səsləyir.

Daha sonra İdman Cəmiyyətinin Fiziki hazırlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənov yarışın qaydaları barədə iştirakçıları və komanda rəhbərlərini məlumatlandırıb.

İlk vaxtlar dənizçilər arasında yaranan qol güləşi (armrestlinq) idman növü kimi 100 ilə yaxındır ki, tanınır. İdman daşlarının qaldırılması hərəkəti də vaxtı ilə dövrlərinin ən güclüləri hesab olunan pəhləvanlardan miras qalıb. Güc, dözüm və çevikliyi müəyyən edən bu idman növü indi də orduda, xüsusi təyinatlılar və dənizçilər arasında ən sevilən yarışdır. Fiziki gücü yoxlamağın ən asan və sadə üsulu kimi tanınan bu idman növündə polislərimiz əvvəlcə nümunəvi çıxışlar göstəriblər.

DİN İdman Cəmiyyətində keçirilən tədbirdə ərazi polis orqanları, nizami hissə və tədris müəssisələrini təmsil edən ümumilikdə 10 komandadan 80 idmançı qələbə uğrunda mübarizə aparıb.

Gərgin keçən yarışlarda iştirakçılar arasında qaliblər müəyyənləşib. Komanda birinciliyində ilk üçlükdə DİN Daxili Qoşunlarının Baş İdarəsinin, Baş Mühafizə İdarəsinin və Əlahiddə Çevik Polis Alayının əməkdaşları qərarlaşıblar.

Yarışa Azərbaycan Qol Güləşi Federasiyasının nümayəndələri hakimlik ediblər.

Öz çəki dərəcələrində güclərini sınayan R.Muradov (70 kiloqram, BMİ), E.Paşayev (75 kiloqram, BMİ), S.Qədirov (80 kiloqram, Bakı Şəhər BPİ), R.Şirinov (85 kiloqram, Sumqayıt ŞPİ), R.Kübarov (90 kiloqram, DİN DQBİ) və Y.Şirinov (+ 90 kiloqram, Sumqayıt ŞPİ), sol qol üzrə isə C.Abbasov (BDYPİ) yarışın baş mükafatını qazanaraq çempion olublar.

Ağırlıq daşlarının qaldırılmasında A.Allahverdiyev (70 kiloqram, DQBİ), E.Dövlətov (75 kiloqram, DQBİ), T.Məmmədov (80 kiloqram, DQBİ), C.Musayev (85 kiloqram, ƏÇPA), M.Hüseynov (90 kiloqram, DQBİ) və E.Cahangirov (+90 kiloqram, ƏÇPA) birinci yerə layiq görülərək fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər.

Mükafatlandırma mərasimində çıxış edən İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov əməkdaşların hazırlıq səviyyəsinin yüksək olmasını, polis idmançılarımızın ildən-ilə təcrübələrinin artdığını diqqətə çatdırıb.

Sonda qaliblərə medallar, diplomlar və qiymətli hədiyyələr təqdim olunub.

***Zeyni Hüseynov,***
***polis serjantı***

# ANIM GÜNÜ...



**Xocalı soyqırımının 26-cı ildönümü münasibəti ilə Zəngilan Rayon Polis Şöbəsində də anım mərasimi keçirilib. Tədbirdə Veteranlar Şurasının üzvləri, və həmin dəhşətli gecənin canlı şahidi olmuş məcburi köçkün ailələrin üzvləri iştirak ediblər.**

Mərasimdən əvvəl soyqırım qurbanlarının, eləcə də torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Ənvər Həsənov bu qətliamın təkcə Azərbaycan xalqına deyil, bəşəriyyətə qarşı yönələn ağır cinayətlərdən biri olduğunu qeyd edib. O, Xocalı faciəsinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün beynəlxalq miqyasda görülən işlər barədə iştirakçılara ətraflı məlumat verib.

Anım mərasimində çıxış edən polis veteranları və məcburi köçkünlər də Xocalı soyqırımı, Azərbaycan xalqı və ümumən insanlıq əleyhinə törədilmiş ən ağır cinayət kimi qiymətləndiriblər.

Tədbirdə Azərbaycanın haqq səsinin eşidiləcəyinə, erməni millətçilərinin mənfur əməllərinin beynəlxalq səviyyədə qınaq obyektinə çevriləcəyinə, xalqımızın işğal altındakı bütün torpaqlarını düşməndən tezliklə azad edəcəyinə və ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına əminlik ifadə olunub.

Sonda Xocalı barədə videoçarx və film nümayiş etdirilib.

*Anar Qafarov, polis baş leytenantı*

# ELAN

## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!



Azərbaycan Respublikası daxili işlər orqanları əməkdaşlarının mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Nərimanov rayonu, 2036-cı məhəllədə (Ziya Bünyadov prospektində, «Koroğlu» metrostansiyasının yaxınlığında) kooperativ yolu ilə tikilən 13 mərtəbəli yaşayış binasında ***ilkin ödəniş 50 faiz olmaqla, 1 il müddətinə 1 kvadratmetri heç bir faiz tutulmadan 900 manata 1, 2, 3, 4 otaqlı mənzillər təklif edilir.***

**Mənzillərin sahələri:**

1 otaqlı – 70.63, 72.93 kvm;
2 otaqlı – 88.17, 89.21 kvm;
3 otaqlı – 152.72 kvm;
4 otaqlı – 177.18 kvm.

Həmin binada mənzil almaq istəyən əməkdaşlar DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin Əsaslı Tikinti İdarəsinə **(tel: (012) 408-81-25)** müraciət edə bilərlər.

**Qeyd: Mənzillərin dəyəri tikintinin sonuna qədər hissə-hissə ödənilməlidir.**

# BU SEVİNCİ PAYLAŞAQ Kİ, BÖYÜSÜN...

**Övladının uğurunu görmək hər kəsin ən böyük arzusu, fərəhidir. Bu sırada polis övladlarının da uğuruna bütün tanıyanların, bilənlərin sevinməsi təbiidir. Çünki polis günün çox hissəsini asayişin, sabitliyin qorunmasına, ölkədə əmin-amanlığın təmini üzərinə düşən vəzifələrin icrasına həsr etməli olur. Bu səbəbdən paqondaşlarımız ev qayğılarından bir qədər uzaq düşür, digər peşə sahibləri kimi övladlarının, belə deyək, "nazını çəkə", onlara lazımınca vaxt ayıra bilmirlər.**

Nə yaxşı ki, övladlar da valideynlərin bu əziyyətini və vəziyyətini anlayışla qarşılayır, təhsildə, idmanda, zəka yarışlarında yüksək nəticələr əldə edirlər.

Bu mövzuya vaxtaşırı müraciət edib həmkarlarımızın sevincinə şərik olmuşuq. Yenidən bizi bu barədə yazmağa sövq edən kiqboksinq üzrə ölkə çempionatında təmsilçimiz **Ağamahmud Siracovun** uğurlu çıxışı oldu.

O, yeniyetmə yaşlarından DİN İdman Cəmiyyətində məşğul olub, kiqboksa həvəs göstərib. Atası, İdman Cəmiyyətinin İdman təlimi şöbəsinin rəisi, polis polkovnik-leytenantı İlyas Siracov ölkəmizin idman ictimaiyyəti arasında tanınan mütəxəssislərdəndir. Əməkdar məşqçidir. Olimpiya oyunlarına, dünya və Avropa çempionatlarına qatılan təmsilçilərimizin hazırlığı üçün alından gələni əsirgəmir. Elə çoxillik təcrübəsinə əsaslanıb, övladına idmanla məşğul olmağı tövsiyə edə, hansı növü seçməsində tam sərbəstlik verib.



Nəticə uğurlu olub. Kiqboksinqi seçən Ağamahmud qısa vaxtda yüksək nəticələr əldə edib. Ölkə və beynəlxalq turnirlərdə layiqli qələbələr qazanıb. Dəfələrlə ölkə çempionu, 2013-cü ildə yeniyetmələrin Avropa birinciliyinin qalibi olub. A.Siracov iki il əvvəl İtaliyada dünya çempionatının qızıl, ötən il isə Macarıstanda dünya çempionatının bürünc medalına layiq görülüb.

Amma İlyas müəllimin də təvazökarlığından keçmə. Bu vaxta qədər bütün idmançılar barədə məlumatları ondan alsaq da, öz övladı haqda bir kəlmə də deməyib.

Atalarımız "Gec olar, güc olar",- deyiblər. DİN Daxili Qoşunlarının İdman komandasının əsgəri Ağamahmud Siracovun nailiyyətləri fəxr ediləsidir. Məşqçisi Hikmət Hacıyev də deyir ki, daha böyük qələbələr üçün yetirməsinin bütün keyfiyyətləri var - gücü də, dözümü də, nizam-intizamı da...

*Zeyni Hüseynov*

# DİQQƏT!

**DİN-in əmri ilə Azərbaycan Polisinin 100 illik yubileyi ilə əlaqədar martın 15-dən aprelin 30-dək daxili işlər orqanlarının əməkdaşları arasında "Ən yaxşı polis sahə inspektoru", "Ən yaxşı polis sahə rəisi", "Ən yaxşı əməliyyat müvəkkili", "Ən yaxşı təhqiqatçı", "Ən yaxşı müstəntiq", "Ən yaxşı tağım komandiri", "Ən yaxşı polis nəfəri" müsabiqəsi keçiriləcək.**

**Nazirliyin orqan və hissələrinin rəisləri, nizami polis hissələrinin komandirləri xidmətdə fərqlənən, qüvvədə intizam tənbehi olmayan, aidiyyatı nominasiyalar üzrə yüksək peşə hazırlığına və xidmət sahəsi üzrə azı 3 il ümumi staja malik əməkdaşlar arasından ən layiqlisini seçib, onun barəsindəki xasiyyətnaməni xidməti, döyüş və fiziki hazırlıq göstəricilərini əks etdirən rəylə birlikdə Mərkəzi Müsabiqə Komissiyasına təqdim olunması üçün Baş Kadrlar İdarəsinə göndərməlidirlər.**

# ONLAR BİZİ NOVRUZA YAXINLAŞDIRIR

**Yaz deyəndə yadımıza ilk növbədə xalqımızın milli və qədim bayramı olan Novruz düşür. Novruz ulu əcdadlarımızın qədim mərasimlərindən biri olmuş, insana həyat verən dörd ünsürün - Suyun, Odun, Küləyin və Torpağın ünsiyyətindən doğan mənaları özündə birləşdirir. Buna görə də Novruza qədər olan çərşənbələrin hər birinin özünəməxsus ayin və mərasimləri var.**

Bütün bunlar Novruzun gəlməsi ilə əlaqədar xalq tərəfindən təmtəraqla qeyd olunur. Qoca, cavan, gəlin, uşaq- hamı ocaq başına toplaşıb, tonqalın üstündən atlanaraq gələn yeni ilə Tanrıdan qada-balasız çıxmağı arzulayır. Səməni əkilər ki, yazın qırxından çıxana – Novruz bayramına süfrələrində göyərsin. Səməni bir növ göyərən arzulara bənzədirlər.

Artıq qış son nəfəsdədir və ötən hər gün bizi bahara, Novruza yaxınlaşdırır.

Novruz çərşənbələrində yazın nəfəsi növbə ilə suyun, ağacların, torpağın canına hopur, onları canlandırır. Təbiət dörd həftədə oyanır. Bu dörd həftədə olan dörd çərşənbələr də bizi Novruza yaxınlaşdırır.

Bəzi etnoqrafçı alimlər hesab edirlər ki, Novruz bayramına qədər qeyd etdiyimiz həftənin 4 çərşənbə günü «axır» yox, «ağır» çərşənbələrdir. Belə ki, qədim inanclara görə, həftənin çərşənbə günləri ağır günlər hesab olunur. Çünki bu günün səyyarəsi Bəhram, yəni Mars səyyarəsidir ki, bu da anlaşılmazlıq, ziddiyyət simvoludur.

Çərşənbələrin hərəsinin bir ünsürlə bağlı olması isə təsadüfi deyil. Əski inamlara görə,



bu çərşənbələrin hər birində təbiətin dörd ünsüründən biri «dirilib». Çünki yazın gəlişi məhz bu 4 ünsürlə bağlıdır.

Bütün çərşənbə axşamlarında od-ocaq qalanması əsas adət hesab edilir.

Birinci çərşənbə «Su çərşənbəsi»dir. Yəni bahara doğru çayların azacıq buz bağlayan yerləri əriyib çaylara tökülür. Torpaq yavaş-yavaş islanmağa başlayır. Bu çərşənbədə qız-gəlinlər sübh çağı çaya, bulaq başına gedər, axar su üzərindən keçər, bir-birlərinin üstünə su çiləyərlər.

İkincisi «Od çərşənbəsi» adlanır. Novruzun əsas rəmzlərindən olan od uzun və soyuq qışdan sonra gözlənilən istiliyi təmsil edir. Ona görə ki, bahara doğru Günəş yavaş-yavaş torpağı qızdırır, isindirir, onu yaratmaq üçün hazırlayır.

Üçüncüsü «Yel çərşənbəsi»dir. İsti və təravətli külək öz qanadlarında baharı gətirir, yel hər yerə nüfuz edərək bütün yatmışları oyadır, ətrafdakı bütün canlıların qanı qaynayır.

Axırıncısı «Torpaq çərşənbəsi»dir. Torpağın ana təbiət – Allahımız su ilə islatdı, Günəşlə isitdi, onu yaratmağa hazırladı. Ona görə də ilk yaz əkini xışla-kotanla məhz «Torpaq çərşənbəsi»ndə başlayır. Torpaq canlanır, toxumunu cücərdir, ağaclar tumurcuqlamağa başlayır. Bu çərşənbədə torpağın canlanmasının rəmzi olaraq səməni göyərdirlər.

Çərşənbə axşamlarında plov bişirilir, məcməyi və sinilərdə xonça bəzənir, şam yandırılır, tonqal qalanır, səməni qoyulur, ölənlərin xatirəsi yad edilir, küsülülər barışır, qohum-qonşular biri-birinə qonaq gedir, pay göndərirlər.

Bayram təntənəsi Novruz günündə öz zirvəsinə çatır.

*N.Cavadov, polis baş leytenantı*

# DÜNYAYA PƏNCƏRƏ

Türkiyədə sosial şəbəkələrdə terrorçuluğu təbliğ edən 786 nəfər saxlanılıb. Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Qeyd olunur ki, saxlanılanlar arasında PKK terror təşkilatının 16 üzvü də var.

*****

***Gələn ilin ortalarınadək Avstriya polisinin tərkibində süvari birləşmələr yaradılacaq. Məlumatı daxili işlər naziri Herbert Kikl təsdiqləyib.***

***Bir sıra Avropa ölkələrinin nümunəsi əsasında DİN süvari polislərdən kütləvi tədbirlərdə, şəhər parklarında və avtomobil hərəkətinin qadağan olunduğu mərkəzi küçələrdə istifadə etmək niyyətindədir.***

***Süvari dəstə ilk olaraq Vyanada yaradılacaq. Sınaq müddəti uğurla başa çatdıqdan sonra ölkənin digər böyük şəhərlərində də bu cür birləşmələrin yaradılması gözlənilir.***

***Heyvanları müdafiə cəmiyyətləri, Vyana şəhəri İçəri Şəhər rayonunun icra hakimiyyəti və polis həmkarlar təşkilatı isə daxili işlər nazirinin planlarını ciddi tənqid ediblər.***

*****

Moskvalı bloger bankda oğurluq edəcəyi barədə video çəkərək görüntüləri 4,5 milyon izləyicisi olan İnstaqram səhifəsində yayıb. Videoda üzündə maska və əlində silah olan oğlan bankı qarət etməyə hazırlaşdığını bildirib.

Onun bu zarafatı paytaxt polisini ayağa qaldırıb. Bloger və dostu polis bölməsinə aparılaraq dindirilib.

Yalan məlumat yaymaqda ittiham olunan dostlar barəsində cinayət işi başlanılıb.

*****

***Türkiyənin Tokat şəhərində sərnişin avtobuslarından birində aparılan yoxlamalar zamanı 17 kiloqram 421 qram heroin ələ keçirilib. Hadisə ilə əlaqədar 2 şübhəli saxlanılıb.***

***Avtobusun saxlanılacağını görən şəxslər öncədən çantalardan birini yol kənarına atıblar. Əməliyyat zamanı tapılan həmin çantadan 8 kiloqram 700 qram heroin götürülüb.***

***Narkotik maddələrin ümumi dəyərinin 3 milyon lirə (təxminən 1,4 milyon manat) olduğu bildirilir.***

*****

Buenos-Ayres beynəlxalq hava limanında keçirilmiş xüsusi əməliyyat zamanı rus əsilli argentinalı polis əməkdaşı saxlanılıb. O, Rusiyanın Argentinadakı səfirliyi vasitəsi ilə kokainin Moskvaya göndərilmə kanalının yaradılmasında əlaqəli olmaqda şübhəli bilinir.

Məlumata görə, səfirliklə sıx əlaqəsi olan həmin şəxs gizli strukturlarının əməkdaşları üçün təhsil proqramlarının təşkili məqsədi ilə mütəmadi olaraq Rusiyaya səfər edib.

Onunla birlikdə digər bir nəfər də saxlanılıb.

İki ölkəni əhatə etmiş birgə əməliyyat bir ildən çox davam edib.

*C.Natiq*

# Fevralın 21-dən 27-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 776 cinayət qeydə alınmış, onların 139-u «isti izlər»lə açılmışdır.
- Axtarışda olduğuna görə 169 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 24 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 13 nəfər ölmüş, 24 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 60 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 201 nəfər saxlanılmışdır.

Sabunçu RPİ-nin rəisi Eldar İlyasov və şəxsi heyəti Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xətai RPİ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Binəqədi RPİ-nin rəisi Namiq İsmayılov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xəzər RPİ-nin rəisi Azər Muradov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nərimanov RPİ-nin rəisi Nəriman İmanov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səbail RPİ-nin rəisi Şəmşir Kazımov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sadiq Gözəlov, Cavid Xaspoladov, Orxan Mansurzadə istefada olan polis polkovniki
**AKİF ABIŞOVUN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Suraxanı RPİ-nin rəisi Namiq Həsənov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Adil Ələkbərov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi və Əbülfət Rzayev şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oğuz RPŞ-nin rəisi Tahir Quliyev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yardımlı RPŞ-nin rəisi Arif Babayev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lerik RPŞ-nin rəisi Hüseynəli Məlikov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdam RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İmişli RPŞ-nin rəisi Ayaz Cəfərov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdaş RPŞ-nin rəisi Rasim Mustafayev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qobustan RPŞ-nin rəisi Etibar Babayev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti Qaçay İsmayılova atası
**ƏYYUB kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qubadlı RPŞ-nin rəisi Bəhruz Cabbarov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.298
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00